AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RUHƏNGİZ ƏLİHÜSEYN QIZI HACIYEVA**

# AZƏRBAYCAN RESPUBLİKASININ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN TƏDQİQİNİN SİYASİ ASPEKTLƏRİ

**İxtisas: 5908.01– Siyasi nəzəriyyə**

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2015**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun “Politologiya və siyasi sosiologiya” şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** fəlsəfə üzrə elmlər doktoru
**Əlisa İsa oğlu Əhmədov**

**Rəsmi opponentlər:** fəlsəfə üzrə elmlər doktoru
**Əlikram Mirhəsən oğlu Tağıyev**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Fuad İlyas oğlu Babayev**

**Aparıcı təşkilat:** **Azərbaycan Dillər Universiteti**

Müdafiə “_30__ ” ____10______ 2015-ci ildə saat _____ -da Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasında keçiriləcəkdir.

**Ünvan:** AZ -1143, Bakı şəhəri, H. Cavid prospekti 31, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, Konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat”____” ______________ 2015-ci ildə göndərilmişdir.

**D.01.115 Dissertasiya Şurasının elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru:** **Sevinc Arif qızı Həsənova**

## İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** İnformasiya bəşəriyyətin həyatında əsrlər boyu aparıcı rol oynamaqla, tarixi inkişafı müəyyənləşdirən əsas amillərdən biri kimi çıxış edir. XX əsrin sonu XXI əsrin əvvəllərində informasiya texnologiyalarından istifadənin artması nəticəsində insanların informasiyadan asılılığı əsaslı şəkildə çoxalmışdır ki, bunun nəticəsində də informasiyanın əhəmiyyəti, ümumi kütləsi xeyli artmış və onun müdafiəsi problemi ən mühüm məsələyə çevrilmişdir. Hal-hazırda məqsədyönlü və ya təsadüfi şəkildə informasiya resurslarına olan təsirlər milli təhlükəsizlik təhdidinə çevrilərək, fərd, cəmiyyət və dövlətin təhlükəsizliyinə kölgə sala bilir. Adətən təhlükə dedikdə fərdin, cəmiyyətin, dövlətin və beynəlxalq sistemin həyati vacib maraqlarının istənilən daxili və xarici təhlükələrdən qorunması vəziyyəti başa düşülür. İnformasiya təhlükəsizliyi isə sosiumun elə bir vəziyyətini xarakterizə edir ki, burada fərd, cəmiyyət və dövlətin informasiya mühiti sürətlə inkişaf edən informasiya axınlarının zərərli təsirindən qoruna bilsin.

Müasir dövrümüzdə informasiya texnologiyalarının insan həyatındakı rolunun artması ilə yeni bir cəmiyyət – informasiya cəmiyyətinin formalaşması prosesi gedir ki, burada da ayrı-ayrı fərdlərdən başlamış, daha böyük iştirakçılara qədər hamı informasiya texnologiyaları vasitəsilə qlobal səviyyədə bir-birilə əlaqələndirilir. Ulu Öndər Heydər Əliyevin sözləri ilə desək "...Texnika, elm, texnologiya çox sürətlə inkişaf edir. Ona görə gərək biz də Azərbaycanda çalışaq ki, bu inkişafda öz yerimizi tapaq, sürəti yavaş-yavaş artıraq və qabaqda gedənlərin səviyyəsində olaq...".[1]

Hal-hazırda informasiya potensialı dövlətin təhlükəsizliyinin təminində daha əhəmiyyətli yer tutur. İnformasiya texnologiyalarından hərbi idarəetmə, kəşfiyyat və digər məqsədlər üçün istifadə olunması informasiya potensialının dövlətin hərbi gücünün bir göstəricisi kimi də çıxış etdiyini göstərir . Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözlərinə istinadən desək, " Gələcəkdə informasiya–kommunikasiya texnologiyaları sahəsi dünyada aparıcı sahə olacaqdır və olmalıdır. Bu sahədə kim qabaqda gedirsə, o da söz sahibi olacaqdır. Çünki bugünkü dünya bundan 10 il, 20 il əvvəlki dünya deyildir. Texnologiyalar, informasiya təhlükəsizliyi, kiberhücumlara qarşı təhlükəsizlik tədbirləri artıq ön plana çıxır və gələcək dövrün güclər nisbəti də məhz bu sahədə müəyyən ediləcəkdir... ".[2] Çünki müasir dövrdə elə bir informasiya mühiti formalaşmışdır ki, burada heç bir milli sərhəd

[1]Əliyev H. Müstəqilliyimiz əbədidir: (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar). İyirmi yeddinci kitab. Bakı: Azərnəşr, 2009,127 s.

[2]Əliyev İ. Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında yekun nitqi. http://president.az/articles/4107/print

yoxdur. Buna görə də informasiya qarşıdurmaları da sərhəd tanımır. Qarşıdurmanın daha effektiv bir növü kimi informasiya müharibələri müasir dövrün siyasətinin ayrılmaz bir hissəsinə çevrilməkdədir və bu tip müharibələr siyasi pərdə arxasında daim davam edir.

Azərbaycan Respublikası da beynəlxalq münasibətlərin siyasi, iqtisadi və hərbi göstəricilərinə görə seçilən dövlətlərindən birinə çevrilməkdədir. Artıq 1990-cı illərin sonundan etibarən iqtisadi və hərbi təhlükəsizliyin informasiya sferasından potensial asılılığı özünü bütün dünyada, eləcə də respublikamızda aydın şəkildə göstərmişdir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilk növbədə dövlət, hərbi və kəşfiyyat idarələrinin fəaliyyətinin informasiya təminatını yaxşılaşdırmaq üçün informasiya texnologiyalarından geniş istifadəyə nail olmaq istiqamətində mühüm addımlar atmışdır. Hal-hazırda informasiya sahəsində dövlətin əsas məqsədi Azərbaycanın informasiya potensialının artırılması, informasiya texnologiyalarından geniş istifadə, informasiya cəmiyyətinin qurulması istiqamətində əsaslı irəliləyişə nail olmaqdır. Deyilənləri nəzərə alaraq mövzunun aktuallığını aşağıdakı amillərin şərtləndirdiyini göstərmək olar:

1. Müasir dövrdə İKT-nin sürətli inkişafı ilə əlaqədar olaraq yeni ictimai-siyasi mühitin yaranması.
2. Yeni bir cəmiyyətin – informasiya cəmiyyətinin formalaşması və inkişafı.
3. Müasir dövrdə informasiya qarşıdurmalarının, informasiya müharibələrinin ön plana keçməsi.
4. Hər bir dövlətin qüdrətinin göstəricisi kimi hərbi, iqtisadi, siyasi potensialla bərabər informasiya potensialının da çıxış etməsi.
5. İnformasiya potensialının dövlətin təhlükəsizliyinin təminində daha əhəmiyyətli yer tutması.
6. İnformasiya resurslarının informasiya təsir vasitələrinə çevrilməsi.
7. Qlobal informasiyalaşma prosesi nəticəsində, cəmiyyətin inkişafının informasiyanın mübadiləsi, emalı və düzgün tətbiqindən son dərəcədə asılı olması.

Beləliklə, informasiya təhlükəsizliyi problemi məhdud texniki kateqoriya çərçivəsindən çıxaraq ictimai proseslərin idarə edilməsinin konseptual əsası kimi çıxış edir. İnformasiya təhlükəsizliyi isə fərd, cəmiyyət və dövlətin informasiya təminatını nəzərdə tutmaqla bərabər, hər bir dövlətin iqtisadi, siyasi, hərbi, mədəni

və digər sahələrdə təhlükəsizliyinin təmininin əsasını təşkil edərək, onun mövcudluğunu təmin edir.

**Problemin işlənmə dərəcəsi.** Milli təhlükəsizliyin tərkib hissələrindən biri olan informasiya təhlükəsizliyi problemləri az tədqiq olunan sahələrdən biridir. İnformasiya təhlükəsizliyi problemi əsasən iki istiqamətdə tədqiq olunmuşdur: birincisi, postindustrial və informasiya cəmiyyəti konsepsiyaları çərçivəsində, ikinci isə milli və beynəlxalq təhlükəsizliyin tədqiqi istiqamətindədir.

İnformasiya cəmiyyəti nəzəriyyələrinin formalaşmasında D.Bell, M.Porat, Y.Masuda, O.Toffler, T.Stoner, P.Draker, M.Kactels böyük rol oynamışlar. Onların bu sahədə yaratdığı nəzəriyyələr müasir cəmiyyətin konsepsiyası kimi çıxış edir.[3] Məhz onlar yeni cəmiyyətin – informasiya cəmiyyətinin xüsusiyyətlərini, əsas meyarlarını, eləcə də ziddiyyətlərini nəzəri cəhətdən işləyib hazırlamışdırlar. Rus tedqiqatçılarından A.İ.Rakitov, R.F.Abdeyev, O.N. Verşenskaya bu sahəni tədqiq etmiş və onu müasir Rusiya reallığında araşdırmışlar.[4]

Elektron hökumət, elektron demokratiya problemləri siyasi kommunikasiyaların, yeni texnologiyaların dövlət idarəetməsindəki rolu

---

[3] Bell.D. The coming of post – industrial society. A.Venture in Sosial Forecasting.N.Y, Basic Books. Inc. 1973.357 p; Porat M., Rubin M. The Information Society: Development and Measurement. Wash., 1978. 87 p; Masuda Y. The Inforamtion Society as Postindustrial Society. Wash.: World Future Soc, 1983. 171p.;Masuda Y. The Information Society as Postindustrial society. Washington.: World Futur. Soc., 1983. 267 p.; Тоффлер О. Смещение власти: знание, богатство и принуждение на пороге XXI века. М.: ИНИОН РАН, 1991. с.324; Тоффлер О. Третья волна. М.: АСТ, 1999. с. 784; Stonier T. The Wealth of Information. L.: Thames Methuen, 1983. 224p.; Drucker P.E. Post-Capitalist Society. N.Y.: Hafer-Collins Publ., 1995. 232 p. (Перевод на русский язык: Дракер П. Посткапиталистическое общество // Новая постиндустриальная волна на Западе: Антология /

Под ред. В.Л.Иноземцева. М.: Academia, 1999. С.67-100).; Кастельс М. Информащюнная эпоха: экономика, общество и культура: Пер. с англ. под науч. ред. О.И.Шкаратана. МГУ ВШЭ, 2000,с.608.

[4] Ракитов А.И. Информация, наука, технология в глобальных исторических изменениях. М.: Политиздат, 1998. с.104; Ракитов А.И. Философия компьютерной революции. М.: Политиздат, 1991. с.287; Абдеев Р.Ф. Философия информационной цивилизации: М.: ВЛАДОС, 1994,с. 336.; Вершинская О.Н. Существующие модели построения информационного общества // Адрес в сети Интернет: http://iis.iis.ru/infosoc/emag.nsf/BPA/lf41ce7df933b2dfc32568c50027cde3;Верщинская О.Н. Возникно-вение идеологии информационного общества // Развитие информационного общества в России. М.: Изд-во Моск. ун-та, 2001, Том 1,с.283

problemlərini R.Devis, N.Oznşteyn, E.Qornıy, M.S.Verşinin, A.A.Çesnokov araşdırmışdır.[5]

İnformasiya təhlükəsizliyi problemlərinə B.A.Kazankovun işlərində daha çox yer verilir.[6] Onun əsərlərində informasiya təhlükəsizliyi problemlərinin siyasi aspektləri dərindən tədqiq edilir, anlayışlar aparatı müəyyənləşdirilir.

Siyasi kommunikasiyaların informasiya təhlükəsizliyində rolunu tədqiq edən müəlliflər sırasına Y.İ. Zasurskini və K.X. Kalandarovu aid etmək olar.[7] Onlar öz əsərlərində siyasi kommunikasiyaların siyasi həyatdakı rolunu təhlil edir, eləcə də bu fəaliyyətlə bağlı meydana çıxa bilən informasiya təhdidlərini araşdırır, informasiya təhlükəsizliyinin təmin edilməsi yollarını göstərirlər.

Milli və beynəlxalq təhlükəsizlik problemlərinin tədqiqi istiqaməti daha çox silahsızlaşma və hərbi məsələləri özündə əks etdirir. Bu tədqiqatlarda böyük üstünlük hərbi-siyasi və hərbi-texniki komponentlərə verilir. B.Buzan, P.Ulman, P.A.Ciqankov bu istiqamətdə işlər aparmışdır.[8]

İnformasiya təhlükəsizliyinin hərbi-siyasi və texniki aspektlərini informasiya müharibələrini tədqiq edən müəlliflərdən Y.Şvartau, M.Libikin, D.S.Srtrelsovun adını çəkmək olar.[9]

---

[5] Davis R. The Web of Politics: The Internet's Impact on the American Political System. 1999, c. 225 ; Oznshtein N., Shenkerberg A. The Promise and Perils of Cyberdemocracy // American entefrise. Wash., 1996. Vol.7, m2.; Горный Е. Цифровой разрыв: факты и мифология // Адрес в сети Интернет:http://www.grani.ru/digitaldivide/ artiles/myths/print.html;Горный Е.Цифровой человек и его права // Адрес в сети Интернет: http://www.smi.ru/2001/02/03/981209930.html.; Чеснаков А.А. Ресурсы INTERNET и российские политические технологии: состояние и перспективы развития // Вестник МГУ. Сер. Социология и политология. 1999. №4.с.18-28

[6] Казанков.В.А Механизм влияния СМИ на информационную безопастность общества \\ NATO: вызовы настаяшего и будушего: материалы международного конфранса. //. М.: Ягуар, 2011 с. 430.

[7] Засурский Я. Информационное общество и средства массовой информации // Адрес в сети Интернет: http://intra.rfbr.ru/pub/vestnik /V3_99/2_l.htm; Каландаров К.Х. Управление общественным сознанием. Роль коммуникативных процессов. М.: Наука, 2006, с. 154 .

[8] Buzan B. People. State and Fear: The National Security Problem in International Relations. Chapel Hill; Univ. of North Carolina Press, 1983.262 p; Ullman R. Redefining Security // International Security. 1983. №1, Vol.8.; Цыганков П.А. Безопасность: кооперативная или корпоративная. Критический анализ международно-политической концепции // Полис. 2000. №3,с.78-86.

[9] Schwartau W. Information Warfare: Chaos on the Electronic Superhighway. New York: Thunders Month Press, 1994.110 p.;Shwartau W., Draper J. Cybershock. NY.:Thunder's Mounth Press, 2000.470 p; Libiki M. What is Information Warfare? ACIS Paper 3. 1995.

İnformasiya təhlükəsizliyinin psixoloji aspektlərini tədqiq edən müəlliflərdən V.Q. Posevsovu göstərmək olar[10] .

V.P. Petrov və S.V. Petrov isə informasiya təhlükəsizliyi problemlərinə kompleks yanaşaraq, onu dərindən təhlil etmişlər. Onların birlikdə hazırladığı "Şəxsiyyət və cəmiyyətin informasiya təhlükəsizliyi" kitabında informasiya problemlərinin geniş şərhi verilmişdir. Burada hərbi, iqtisadi, siyasi, sosial və s. sahələrdə informasiya təhdidləri göstərilmiş və onların aradan qaldırılması yolları araşdırılmışdır.[11]

Azərbaycanda informasiya təhlükəsizliyinin təmininin əsas istiqamətləri Ümummilli Lider Heydər Əliyevin eləcə də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarında və siyasi fəaliyyətində öz əksini tapmışdır. Azərbaycanda telekommunikasiya və informasiya texnologiyaları sektorunun inkişaf strategiyası da Heydər Əliyev tərəfindən müəyyənləşdirilmişdir. Onun 2003-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" Azərbaycanda bu istiqamətdə dövlətin siyasəti, məqsəd və vəzifələri, prioritetləri və fəaliyyət istiqamətlərini müəyyən edən əsas sənəd olmuşdur.

Prezident İlham Əliyev 2003-cü il dekabrın 12-də Cenevrədə keçirilən və bəşəriyyətin gələcək inkişafı baxımından mühüm hadisə olan İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitində "Qara qızılı insan kapitalına çevirək" tezisini səsləndirməklə ölkə iqtisadiyyatında yeni inkişaf mərhələsinin əsasının

---

August // Адрес в сети Интернет: http://www.ndu.edu/inss/actpubs /act003/a003.html.; Стрельцов А. Проблемы реализации доктрины информационном безопасности на

современном этапе // ≪Право знать: история, теория, практика≫. 2001. №11-12 (59-

60) ноябрь-декабрь // Адрес в сети Интернет:http://www.ksdi.ru/right/2001_59_60(1 l-12)/strelcov_1 l_12.html.

[10] Почепцов В.Г. Психологические войны. Киев: Ваклер, 2000. с.528; Почепцов В.Г. Информационные войны. М.: Рефл-бук, 2000. с.576;Почепцов В.Г. Коммуникативные технологии XX века. М.: Рефл-бук, Киев: 2001,с.352; Почепцов В.Г. Теория коммуникации. М.: Рефл-бук, Киев: Ваклер 2001, с.651.

[11] Петров В.П. Петров С.В. Информационная безопасность человека и общества. Учебное пособие. - М.: НЦ ЭНАС, 2007. 336 с.

qoyulduğunu dünyaya bəyan etmiş və respublikamızda informasiya cəmiyyətinin qurulması istiqamətində dövlət səviyyəsində məqsədyönlü işlərə start vermişdir.[12]

İKT üzrə güclü qanunvericilik bazasının formalaşdırılması və bu sahənin davamlı inkişafını təmin etmək məqsədilə qısa müddət ərzində "Elektron imza və elektron sənəd haqqında", "Elektron ticarət haqqında", "Telekommunikasiya haqqında", "Poçt haqqında", "İnformasiya əldə etmək haqqında", "Biometrik informasiya haqqında", "Fərdi məlumatlar haqqında" və s. Azərbaycan Respublikasının qanunları qəbul olunmuş, İKT-nin sürətli inkişafı ilə bağlı mühüm fərman və sərəncamlar imzalanmışdır.

Azərbaycanda informasiya təhlükəsizliyi problemləri daha çox milli təhlükəsizlik kontekstində tədqiq edilmişdir. Adətən milli elmdə informasiya təhlükəsizliyi problemi digər təhlükəsizlik aspektlərinin daxilində tədqiq edilmişdir. Azərbaycanlı tədqiqatçılardan A. Vəliyevin, A. Piriyevin, R. Əliquliyevin, F. Əliyevanın, C. Eyvazovun, A. Rzayev və başqalarının adlarını çəkmək olar.

R. Əliquliyev informasiya təhlükəsizliyinin texniki aspektləri istiqamətində araşdırmalar aparmışdır. O, Azərbaycanda informasiya cəmiyyətinin qurulmasının texniki istiqamətlərini tədqiq etmiş, "elektron hökumət", "elektron imza" məsələlərini öz əsərlərində araşdırmış, eləcə də informasiyanın qorunması, kompüter viruslarına qarşı mübarizə və s. bu kimi sahələrə aid əsərlər yazmışdır.[13]

A. Vəliyev informasiya təhlükəsizliyinin təhlükə mənbələrini ayırmış və onun siyasi təhlükəsizliyin təminindəki rolunu araşdırmışdır. O, əsasən milli təhlükəsizlik probleminə kompleks yanaşmış, onun ayrı-ayrı elementlərinin qarşılıqlı əlaqələrini tədqiq etməyə çalışmışdır.[14]

A. Piriyev ümumilikdə milli təhlükəsizlik sisteminin bütün elementlərini tədqiq etmiş, Azərbaycan Respublikasının təhlükəsizliyinin əsas istiqamətlərini araşdırmış və təhlükəsizlik problemlərinin həlli yollarını göstərmişdir.[15]

C. Eyvazov informasiya təhlükəsizliyinin texniki- sosial və sosial -operativ elementlərini araşdırmışdır. Eləcə də, Qafqaz regionunun təhlükəsizliyi

---

[12] Cenevrədə İnformasiya Cəmiyyəti üzrə dünya sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. http://files.preslib.az/site/ialiyev/2003.pdf

[13] Əliquliyev R.M., İmamverdiyev Y.N. E-dövlərin informasiya təhlükəsizliyi: aktual tədqiqat istiqamətləri // İnformasiya cəmiyyəti problemləri, 2001, №1, s. 3-19.

[14] Велиев А.Ю Политическая безопасность как составная часть национальной безопасности // Hərbi bilik, 1995, №3, с.35-42.

[15] Piriyev A . Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı, BDU, 2002, s. 490.

kontekstində Azərbaycan Respublikasının təhlükəsizliyini, təhlükəsizliyin müxtəlif komponentlərini tədqiq etmişdir.[16]

İ. Mazanlı öz əsərində informasiya təhlükəsizliyinə aid terminləri cəmləmiş, onların şərhini vermişdir.[17]

F. Əliyeva Azərbaycanın informasiya təhlükəsizliyindən yazaraq onun fəlsəfi aspektlərini tədqiq etmişdir. O, informasiya təhlükəsizliyi siyasətini dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunması, əxlaqi dəyərlərin formalaşdırılması istiqamətində öyrənmişdir.[18]

İnformasiya cəmiyyətini tədqiq edən alimlərdən İ. Məmmədzadə, A. Əhmədova, F. Əliyevanın və başqalarının adını çəkmək olar. Bu tədqiqatçılar informasiya cəmiyyəti problemlərini tədqiq etməklə bərabər, Azərbaycanda da bu cəmiyyətin yaranması perspektivlərini araşdırmışdırlar.[19]

**Dissertasiyanın obyekti və predmeti.** Dissertasiyanın obyekti kimi informasiya təhlükəsizliyi siyasətinin tədqiqi, araşdırmanın predmeti kimi isə Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin təmini istiqamətində dövlət siyasətinin formalaşması prosesi çıxış edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi milli təhlükəsizlik sistemində informasiya təhlükəsizliyi fenomeninin siyasi istiqamətlərini təhlil etmək, təhlükəsizliyin digər sahələri ilə onun qarşılıqlı əlaqəsini öyrənmək, informasiya cəmiyyətinin informasiya təhlükəsizliyi sistemində rolunu araşdırmaqdır.

Bu məqsəd aşağıdakı vəzifələrin tədqiqini tələb edir:

- təhlükəsizlik sahəsində ideyaların, baxışların, konsepsiyaların siyasi təhlilini vermək;

---

16 Айвазов Д.. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку,Нурлан ,2004. с. 322.

17 Mazanlı İ. Söz azadlığı və informasiya təhlükəsizliyi: milli və beynəlxalq təminat. Terminlər və anlayışlar. Bakı,UniPrint, 2005,s .215; Mazanlı İ .New system of relations in the sphere of information - system of provision of information security. Beynəlxalq elmi – nəzəri jurnal. Dil və Ədəbiyyat seriyası, № 5(59), Bakı, 2007,c. 54-59.

18 Əliyeva F. Qloballaşma və Azərbaycanın milli təhlükəsizlik fəlsəfəsi. Bakı: Səda, 2008.c. 163.

19 Məmmədzadə. İ. informasiya cəmiyyətinə aparan yol. Strateji təhlil jurnalı . İyul – sentyabr 2010, № 1 (1) s.46-54; Əhmədova A. İnformasiya cəmiyyətinin qurulmasında informasiyalaşmanın rolu və dövlət siyasəti - Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Bakı, 2009, №3 (27), s. 163-170.; Əliyeva F. Qloballaşma və Azərbaycanın milli təhlükəsizlik fəlsəfəsi. Bakı: Səda, 2008.c. 163.

- informasiya təhlükəsizliyi sisteminin mahiyyəti, strukturu və elementlərinin qarşılıqlı əlaqəsinin siyasi aspektlərini araşdırmaq;
- informasiya müharibələrinin mahiyyətini, xüsusiyyətlərini, aparılması yollarını göstərmək;
- Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin mahiyyətinin siyasi aspektlərini izah etmək;
- Azərbaycanı informasiya müharibəsinin obyekti və subyekti kimi tədqiq etmək;
- KİV-in informasiya təhlükəsizliyindəki rolunu araşdırmaq.

**Tədqiqatın elmi yeniliyi** ilk dəfə informasiya təhlükəsizliyi probleminin mövcud nəzəri aspektlərini kompleks şəkildə tədqiq edərək, onlar əsasında informasiya sferasında baş verən ictimai-siyasi prosesləri araşdırmaq və idarə etmək üçün informasiya təhlükəsizliyi siyasətinin modelinin hazırlanmasıdır.

Problemin tədqiqi nəticəsində irəli çıxan yeniliklər:

- qlobal informasiyalaşmanın siyasi, sosial və sosiomədəni nəticələrinin üzə çıxarılması ilə onların informasiya təhlükəsizliyi siyasətinin formalaşmasındakı rolu göstərilir;
- informasiya təhlükəsizliyi probleminin sərhədlərinin göstərilməsi ilə anlayışlar aparatı dəqiqləşdirilir;
- informasiya təhlükəsizliyi probleminin siyasi aspektlərinin nəzəri modeli yaradılır;
- Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasətinin konseptual əsaslarının formalaşmasında qlobal informasiyalaşmanın və İKT-nın sürətli inkişafının rolu aydınlaşdırılır;
- Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi probleminin siyasi aspektləri kompleks şəkildə araşdırılır.

**Tədqiqatın nəzəri-metodoloji əsası** kimi xarici və yerli alimlərin, filosofların, politoloqların siyasi təhlil, dövlət idarəetməsi, informasiya cəmiyyəti nəzəriyyəsi, siyasətin nəzəriyyəsi sahəsindəki klassik və müasir konsepsiyaları, ideyaları çıxış edir. Dissertasiyada məntiqi tarixilik, müqayisəli təhlil metodlarından istifadə edilmiş, eyni zamanda mövzu araşdırılarkən həm nəzəri, həm də emprik idrak metodlarına istinad olunnmuşdur. Siyasi proseslərin məzmununun tədqiqi komparativizm metodu, məntiqi-dialektik təhlil, sistem yanaşmanın prinsipləri əsasında aparılmışdır. Nəzəri-metodoloji bazanın formalaşmasında Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məruzə, nitq və müsahibələrində öz əksini tapmış müddəalara ciddi diqqət yetirilmişdir. Bununla yanaşı işdə normativ sənədlərdən, elmi və elmi-praktik

konfrans və seminar materiallarından, ekspert qiymətləndirmələrindən istifadə edilmişdir.

**Dissertasiyanın nəzəri və elmi-praktik əhəmiyyəti.** Tədqiqat predmeti kimi seçilmiş mövzunun araşdırılması informasiya təhlükəsizliyi probleminin siyasi aspektlərini, onların mahiyyəti və xarakterini dərk etməyə və əldə olunmuş nəticələrdən müvafiq dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının praktik fəaliyyətində istifadə etməyə imkan yaradır.

Bununla yanaşı dissertasiyanın nəticələrindən politologiya, konfliktologiya və digər müvafiq fənlərin tədrisi zamanı, həmçinin sosial-siyasi, informasiya problemlərinin öyrənilməsi və dərinləşdirilməsində tədqiqatçılar mənbə kimi istifadə edə bilərlər.

**İşin aprobasiyası**. Dissertasiya AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Politologiya və siyasi sosiologiya" şöbəsində hazırlanmışdır. Tədqiqatın əsas məzmunu müəllifin məqalə və tezislərində, konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, iki fəsil, yeddi yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

"Girişdə" mövzunun aktuallığı əsaslandırılmış, problemin işlənmə dərəcəsi müəyyənləşdirilmiş, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, metodoloji əsası, nəzəri və praktik əhəmiyyəti göstərilmiş, işin aprobasiyası və strukturu haqqında məlumat verilmişdir.

**"İnformasiya təhlükəsizliyi probleminin siyasi təhlili"** sərlövhəli birinci fəsil üç yarımfəsildən ibarətdir. **"İnformasiya təhlükəsizliyi anlayışının mahiyyətinə siyasi baxış"** adlı birinci yarımfəsildə qloballaşma və informasiya cəmiyyəti kontekstində informasiya təhlükəsizliyi anlayışının mahiyyəti araşdırılmış və onun siyasi təhlili verilmişdir. İnformasiya təhlükəsizliyi anlayışı müasir siyasi elmdə geniş işlənsə də, onun hələ qədim dövrdən daima müxtəlif alim və mütəfəkkirlərin əsərlərində bu və ya digər formada tədqiq olunduğu göstərilir. Qədim dövrdən başlayaraq müasir dövrümüzə qədər informasiya təhlükəsizliyi problemi dövlət, cəmiyyət və fərdin həyatında mühüm rol oynamışdır. Məsələn, qədim Çin mütəfəkkiri Sun-Szı "Hərbi mədəniyyət haqqında kitab" əsərində yazırdı: "Döyüşlərdə yüzlərlə qələbə qazanmaq peşəkarlıq deyil.

Düşmənə döyüşsüz qalib gəlmək peşəkarlıqdır".[20] Dissertasiyada orta əsrlər , yeni dövr mütəfəkkirlərinin, sərkərdələrinin əsərləri və fəaliyyətində də bu problemlə bağlı olan fikirlər araşdırılmışdır.

Dissertasiyada qeyd olunur ki, XX əsrə qədər informasiya təhlükəsizliyi problemi ayrıca bir sahə kim tədqiq edilməmiş və ona əsas siyasi amil kimi önəm verilməmişdir. Məhz XX əsrdə informasiya texnologiyalarının inkişafı qloballaşma və informasiya cəmiyyətinin formalaşması prosesinə təkan vermişdir ki, nəticədə informasiya təhlükəsizliyi problemi daha böyük aktuallıq kəsb etmişdir. Qloballaşma prosesi adətən xalqların bir-biri ilə ənənəvi proteksionist maneələr və sərhədlərlə ayrılmasının qarşısını alan cəmiyyət və ya bir-bir ilə sıx qarşılıqlı əlaqədə olan dünya kimi xarakterizə olunur. Müasir dövrdə qloballaşmanın ən mühüm tendensiyası kimi maliyyə ,iqtisadi sahədə qloballaşma və geniş informasiyalaşma çıxış edir. Məhz qlobal informasiyalaşma prosesində cəmiyyət təkcə texniki cəhətdən deyil, eləcə də sosial və mənəvi istiqamətdə də dəyişir. Bütün bu dəyişikliklərin nəticəsində isə qlobal informasiya məkanı formalaşır ki, nəticədə bəşəriyyət informasiya cəmiyyəti quruculuğuna qədəm qoyur. Bu cəmiyyətin digər sosial quruluşlardan fərqi ondadır ki, burada insanla ictimai institutlar arasında əlaqələndirici kimi informasiya mühiti çıxış edir. İnformasiya cəmiyyəti müasir cəmiyyətin inkişafının qanunauyğun bir inkişaf mərhələsidir. Bu elə bir cəmiyyətdir ki, burada milli sərhədlər öz əhəmiyyətini itirir, milli münasibətlər, milli ənənələr əvvəlki kimi nəzərə çarpmır, onlar vahid informasiya məkanında birləşir.[21] Dissertasiyada informasiya cəmiyyətinə dair nəzəriyyələr araşdırılaraq belə bir qənaətə gəlinir ki, informasiya cəmiyyətinin bu və ya digər formasının mövcudluğu tezisini irəli sürmək hələ tezdir. İqtisadi və texniki tərəqqi ilə bağlı olaraq insan fəaliyyətinin müəyyən sahələri inkişaf etməkdədir ki, bunu da informasiya cəmiyyətinin tam formalaşması kimi yox, bu cəmiyyətin yaranması tendensiyaları kimi qəbul etmək olar. Qlobal informasiya cəmiyyətinin formalaşması tendensiyası ilə əlaqədar informasiya təhlükəsizliyi sahəsində yeni risklər və təhdidlər yaranır. Bunlara aşağıdakıları aid etmək olar:

- informasiya məkanında dövlətlərarası toqquşmaların daha da artması;
- qlobal informasiya – telekommunikasiya şəbəkələrinin sıradan çıxması ilə infogen fəlakətlərin yaranması;

---

[20]Конрад Н.И. Сунь-Цзы. Трактат о военном искусстве. М.-Л.: Изд-во АН СССР, 1950.с.42.

[21]Черешкин Д.С., Смолян Г.Л. О формировании информационного общества в России // Информационные ресурсы России. 1998. №1. С.8-13.

- cinayət məqsədləri üçün fərdi məlumatların toplanması;
- milli mədəniyyətlərin sarsılması;
- cəmiyyətin kütləvi yalanlarla rastlaşması;
-milli dəyərlərin məhvi və s .

Bunlar mahiyyətcə informasiya texnologiyalarından insanliğa qarşı qeyri-konstruktiv məqsədlər üçün istifadə nəticəsində yaranır. İnformasiya təhlükəsizliyini tədqiq edən mütəxəssislər də cəmiyyət həyatını bu tip yeni təsirlərdən qorumağın yollarını araşdırırlar. Belə problemlərin qarşısını almaq üçün:

- informasiya cəmiyyətinin hüquqi əsasları işlənməlidir;
- kibercinayətkarlığa qarşı fəaliyyət sistemi formalaşdırılmalıdır;
- fərd, cəmiyyət və dövlətin informasiya sferasında maraqlarının tarazlığına nail olunmalıdır;
-informasiya texnologiyalarının tətbiqinin sosial-psixoloji nəticələri proqnozlaşdırılmalıdır;
-informasiya texnologiyalarının tətbiqi sahəsində kadr hazırlığı prosesi yerinə yetirilməlidir.

"**İnformasiya təhlükəsizliyi sistemi : siyasi mahiyyəti, strukturu və əsas elementləri**" adlı ikinci yarımfəsildə ilk növbədə informasiya təhlükəsizliyi milli təhlükəsizliyin tərkib hissəsi kimi araşdırılır. Milli təhlükəsizlik sistemində informasiya təhlükəsizliyinin yeri göstərilir və digər milli təhlükəsizlik elementləri ilə onun qarşılıqlı əlaqələri tədqiq edilir. İnformasiya təhlükəsizliyi dövlət, cəmiyyət və sosial qrupların, eləcə də hər bir fərdin həyat fəaliyyətini və həyati bacarıqlarını saxlamaq üçün lazımlı və təhlükəsiz informasiya ilə təmin olunmaq bacarığı kimi səciyyələndirilir.[22] İnformasiya təhlükəsizliyi sisteminin üç əsas istiqaməti – şəxsiyyət, cəmiyyət və dövlətin informasiya təhlükəsizliyi araşdırılır və onların arasındakı əlaqə üzə çıxarılaraq dövlətin informasiya təhlükəsizliyinin şəxsiyyət və cəmiyyətin maraqlarının qorunmasını ehtiva etməli olduğu göstərilir. Dövlətin informasiya təhlükəsizliyində şəxsiyyət və cəmiyyətin maraqlarının nəzərə alınması ona görə vacibdir ki, bu, daha düzgün qərarların qəbulunu asanlaşdırır və nəticə etibarilə dövlətin demokratikliyinə yol açır, fərdin azadlığına və hüquqlarının qorunmasına təminat verir.[23] Bütün bunlara nail olmaq üçün milli maraqların qorunmasının vacibliyi göstərilir. Məhz milli maraqların düzgün müəyyən-

[22].Поздняков А.И. Информационная безопасность личности, общества, государства // Военная мысль. 1993. № 10. С. 13-18.

[23] Шерстюк В.П. Проблемы информационной безопасности в современном мире. http://www.cryptography.ru/db/msg.html?mid=1169390

ləşdirilməsi milli təhlükəsizlik siyasətinin mahiyyətini təşkil edir. Həmçinin burada informasiyaların növləri, informasiya təsir vasitələri, informasiya təhdidləri araşdırılır. Göstərilir ki, informasiya təhlükəsizliyinə ilk təhdidlər siyasi sistemin özündən qaynaqlanır. Demokratik sistemin qurulduğu cəmiyyətlərin informasiya təhdidlərinə daha çox dözümlü olduğu üzə çıxarılır. Digər təhdidlər kimi kiberterrorizm və kibercinayətkarlıq, informasiya terrorizmi, beyinlərin miqrasiyası, insanların şüuruna təsir edən yeni informasiya-psixoloji texnologiyalar, informasiya müharibələri və s. göstərilərək, onların xüsusiyyətləri üzə çıxarılır. Burada informasiya təhlükəsizliyinin təmin edilməsinin prinsipləri göstərilir ki, onlara aşağıdakılar aid edilir:

- informasiyanın qanuniliyi və hüquqi təmini;
- fərd, cəmiyyət və dövlətin maraqlarının balanslaşdırılması;
- beynalxalq təhlükəsizlik sistemi ilə inteqrasiya;
- iqtisadi effektivlik prinsipi;
- informasiyanın ötürülməsinin sistemliyi və kompleksliyi;
- informasiyanın həqiqiliyi və informasiya mübadiləsində manipulyasiyaların aradan qaldırılması;
- informasiya itkilərinə yol verilməməsi.

Üçüncü yarımfəsil **"İnformasiya müharibəsi: növləri, məqsədləri və aparılması metodları"** adlanır ki, burada informasiya müharibələrinin informasiya təhlükəsizliyində yeri və rolu araşdırılır. İnsanların informasiyasız yaşamaları mümkün deyildir. Dissertasiyada göstərilir ki, fiziki müharibə etmədən İM aparmaq olur, amma İM olmadan fiziki müharibə aparılmır. Başqa sözlə, fiziki müharibə aparılarkən, eyni zamanda onun tərkib hissəsi kimi İM-in aparılması zəruridir. İM-nin nəzəriyyəçilərindən olan Q. Lassuel, M. Maklyuen, C. Kellinin nəzəriyyələri araşdırılaraq İM-i texnologiyalarının formalaşmasında onların rolu göstərilir. Bu nəzəriyyələrin İM-nin IV mərhələsinin məhsulu olduğu vurğulanaraq, bu müharibələrin keçdiyi tarixi dövrlər araşdırılır.

Texnologiya inqilabı "informasiya erasi" termininin meydana çıxmasına səbəb oldu, ona görə də informasiya sistemləri bizim həyatımızın bir hissəsinə çevrildi və onu kökündən dəyişdirdi. Praktik və nəzəri mənada informasiya erası müharibəsini və İM-ni bir-birindən fərqləndirmək lazımdır. İnformasiya erası müharibəsi informasiya texnologiyasından döyüş əməliyyatlarının müvəffəqiyyətli keçirilməsi üçün vasitə kimi istifadə etməkdir. Əksinə, informasiya müharibəsi informasiyanı ayrıca obyekt və ya potensial silah kimi, eləcə də, əlverişli hədəf kimi nəzərdən keçirir.

İnformasiya müharibəsi düşmənin bilik və fərziyyələrinə təsir üçün informasiya sistemlərinə birbaşa hücumların baş verdiyi münaqişə formasıdır. İnformasiya müharibəsi təhdidi adı altında müəyyən güclərin kompüterlərdə gizlədilmiş kibersahədə, insan qurbanlarının miqdarı minimuma endirilmiş geniş "kontaktsız" müharibə aparılması üçün valehedici imkanlardan istifadə etmək niyyəti başa düşülür. Pentaqon rəhbərlərindən biri belə demişdir: "Biz inkişafın elə bir pilləsinə yaxınlaşırıq ki, artıq burada heç kim əsgər deyil, amma eyni zamanda, hamı döyüş əməliyyatlarının iştirakçısıdır. Məsələ indi əhalinin məqsədlərinin, baxışlarının və dünyagörüşünün alt-üst edilməsindən, sosial mühitin dağıdılmasından, ancaq canlı qüvvənin məhv edilməməsindən ibarətdir".[24]

Dissertasiyada İM-nin tərkib hissələri və növləri araşdırılaraq onların hər birinin xüsusiyyətləri üzə çıxarılır. İnformasiya müharibəsinin istənilən vacib və əhəmiyyətli məlumatları deqradasiya (effektivliyin azalması və ya zəifləmə) edən, müdafiə, mühafizə, ən əsası isə manipulyasiya və təbliğatın qəbul edilməməsi kimi ümumi məqsədlərə malik bir neçə növü olduğu vurğulanır. Onlara misal olaraq kompüterlərin müxtəlif növ viruslara birbaşa və ya bilavasitə məruz qaldığı haker müharibəsi, kibernetika müharibələri, iqtisadi üstünlüyü ələ keçirmək məqsədilə biznes məlumat axınları və kanalların qarşısına sədd çəkən iqtisadi informasiya müharibəsi, ən öldürücü və təhlükəli müharibə növü olan idarəetmə və nəzarət müharibəsi, müxtəlif mənbələrdən toplanmış məlumatlardan düşmənlərin, neytral tərəflərin, eləcə də dünyanı iqtisadi cəhətdən idarə etmək kimi mənfi məqsədlər daşıyan dostların hərbi qüvvə, elektroenergetika bazası-silahlanma üzrə fikirlərinin dəyişdirilməsi məqsədilə istifadə edilən psixoloji müharibəni göstərmək olar. Beləliklə, informasiya müharibəsi – kütləvi şüura qısa və uzun müddətli məqsədlərə nail olmaq məramı ilə aparılan kommunikativ texnologiyadır.[25] Başqa sözlə desək bu baza biliklərinin müharibəsidir. Bu müharibədə qalib gəlməyin mühüm şərti informasiya üstünlüyünə nail olmaqla, bu informasiyalardan adekvat şəkildə istifadə etməyi bacarmaqdır.

Dissertasiyanın "**Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin təmin olunmasının əsas siyasi istiqamətləri**" adlı ikinci fəsli dörd yarımfəsildən ibarətdir. **"Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət siyasəti"** adlı I yarımfəsildə Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi sahəsindəki dövlət siyasəti

[24]Шубин А. Перманентная информационная война. http://www.creativism.newmail.ru/SMIInfoWar

[25] Почепцов Г.Г. Информационные войны. М.: Рефл-бук, К.: Ваклер, 2000, с 20.

müqayisəli şəkildə araşdırılır. Burada ilk növbədə ABŞ, Qərbi Avropa, Çin və eləcə də postsovet dövlətlərində informasiya təhlükəsizliyi siyasətinin xüsusiyyətləri üzə çıxarılır. ABŞ, Qərbi Avropa və Çin kimi dövlətlərdə informasiya təhlükəsizliyi siyasəti kibertəhlükəsizlik, informasiya müharibələri, İKT-dan cəmiyyətin sosial, iqtisadi və siyasi inkişafı məqsədilə istifadə olunması kimi məsələləri özündə ehtiva edir. Postsovet ölkələrində , başlıca olaraq Rusiya Federasiyasında isə informasiya təhlükəsizliyi siyasəti daha əhatəedici olub, daxili siyasətdə cəmiyyətin mənəvi həyatının qorunması, konstitutsiya sistemi və ərazi büyövlüyünün pozulmasının qarşısının alınması, milli, dini, sosial ziddiyyətlərə yol verilməməsi, KİV-in rolunun tənzimlənməsi, xarici siyasətdə isə dövlətin müsbət imicinin qorunması, informasiya müharibəsində üstünlüyə nail olunması kimi vəzifələri irəli sürür. Dissertasiyada göstərilir ki, postsovet məkanı dövlətlərinin əksəriyyətində informasiya təhlükəsizliyi siyasətinin belə qurulması informasiya təhlükəsizliyi sahəsində lazımi hüquqi bazanın tam formalaşmaması, fərd ,cəmiyyət və dövlət maraqlarının uzlaşdırılmasında çətinliklərin olması, vətəndaş cəmiyyəti və hüquqi dövlət ənənələrinin hələ tam möhkəmləndirilməməsi ilə əlaqədardır. Qeyd edilir ki, Azərbaycan Respublikası da sovet məkanından çıxan dövlət olduğundan bu məsələlər onun üçün də aktualdır. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasətinin qurulması təcrübəsi ADR dövründən başlayır. Dissertasiyada ADR dövründə informasiya təhlükəsizliyi problemlərinin həlli yolları göstərilir. 1991-ci il noyabrın 1-də isə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin təsis edilməsi ilə ölkəmizin milli təhlükəsizliyində yeni dövrün başlandığı vurğulanır. Azərbaycan Respublikasının milli təhlükəsizliyi onun əhalisinin, dövlət quruluşunun və ərazisinin daxili və xarici təhlükədən qorunması vəziyyətidir.[26] Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının milli təhlükəsizliyi çoxlu sayda təhlükələrlə qarşılaşmışdır. Bu təhlükələr istər daxili, istərsə də xarici siyasətdə problemlər yaradırdı. İnformasiya təhlükəsizliyinin təmin edilməsində aparıcı rolu dövlət oynayır, çünki məhz o, özündə həm fərd, həm də cəmiyyət maraqlarını ehtiva edir. Azərbaycan Respublikasında hal-hazırda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi gedir. Elə bu özü də informasiya təhlükəsizliyinin təminində mühüm addım hesab edilməlidir. Çünki məhz belə bir dövlətdə informasiya təhdidlərinin qarşısının alınması daha effektli olur və belə bir cəmiyyət informasiya təhlükələrindən daha yaxşı qoruna bilir. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin təmin olunmasında Ulu

---

[26] Azərbaycan Respublikasının Milli Təhlükəsizliyi haqqında Qanunu. http://www.mns.gov.az/az/pages/72-74.html.

Öndər Heydər Əliyevin rolu müstəsnadır. O, ölkəni separatizmdən, siyasi xaosdan, iqtisadi böhrandan qurtarmışdır. Onun rəhbərliyi altında 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikası Konstitusiyasının ümumxalq səsverməsi ilə qəbul olunması demokratik, hüquqi dövlət quruculuğunda ilk addımdır. Bununla ölkədə siyası, iqtisadi, informasiya məkanında təhlükəsizlik mühitinin bərqərar olunması üçün əsaslı zəmin yaradıldı. Hal-hazırda Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində mühüm addımlar atılır. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev öz siyasətində İKT sektoruna xüsusi önəm verir və onu neft strategiyasından sonra prioritet sahə elan etmişdir.[27] İnformasiya cəmiyyətinin qurulması istiqamətində aparılan işlərə misal olaraq elektron hökumətin yaradılması, elektron imzaya, elektron ticarətə keçid göstərilir. Həmçinin kibercinayətkarlıq və kiberterrorizmə qarşı mübarizə, dini ekstremizmin qarşısının alınması, Azərbaycançılıq ideyası ətrafında cəmiyyətin bütün üzvlərinin sıx birləşdirilməsi, hərbi sahədə ictimaiyyətlə əlaqə yaradılması üzrə işlərin fəallaşdırılması, mədəniyyətimizin geniş təbliği dövlətimizin informasiya təhlükəsizliyi siyasətini müəyyənləşdirir və məqsədyönlü fəaliyyət üçün geniş imkanlar açır.

**"Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasətinin formalaşmasında hüquqi-normativ aktların və qanunvericilik sənədlərinin rolu"** adlı II yarımfəsildə informasiya təhlükəsizliyinin təmin olunmasının ilk növbədə hüquqi tənzimləmənin düzgün qurulmasından asılı olduğu vurğulanır. Məhz düzgün qurulmuş hüquqi bazanın bu sahədə uğurlu siyasətin aparılmasına təminat verdiyi göstərilir. Azərbaycanda informasiya təhlükəsizliyinin əsas hüquqi bazası kimi Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının "Milli Təhlükəsizlik haqqında" Qanunu, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyası çıxış edir. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyasında Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasətinin dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarət olduğu bildirilir.[28] İnformasiya təhlükəsizliyinə bu cür yanaşma Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin kompleks xarakterini göstərir. Çünki, geniş mənada yanaşsaq

---

[27] Hacıyev Ş. Azərbaycanda təhsil yeni inkişaf mərhələsində. // Strateji təhlil jurnalı . 3 noyabr 2011, № 3 s.9-23;

[28] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. http://www.mns.gov.az/img/3766779-_5me02.%20Milli_Tehlukesizlik_Konsepsiyasi.pdf

burada fərdin informasiya təhlükəsizliyi məsələsinin cəmiyyət və dövlətin informasiya təhlükəsizliyi ilə eyni səviyyədə qoyulduğunu və onun ön plana çəkdilyini görürük. İnformasiya təhlükəsizliyi probleminin konsepsiyada göstərildiyi kimi səciyyələndirilməsi, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin qorunmasında təkcə dövlət və cəmiyyətin deyil, fərdin informasiya maraqlarının da önəmli yer tutmasından xəbər verir. Tədqiqat işində göstərildiyi kimi, Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" Qanununda informasiya təhlükəsizliyinin təmini sahəsində milli maraqlara informasiya mühitinin qorunması məsələsi aid edilir ki, bu da informasiya mühitini cəmiyyətin həyatında sistemləşdirici bir sfera kimi səciyyələndirməyə imkan verir.[29] Azərbaycan Respublikasının informasiya təhlükəsizliyini qorumaq məqsədilə informasiya resurslarının formalaşdırılması, saxlanması və ondan rasional istifadə sisteminin təkmilləşdirilməsi məsələsi qoyulur ki, bu da müasir dövrdə İKT-nin yüksək sürətli inkişafına uyğunlaşmaq baxımından çox əhəmiyyətlidir. İnformasiya təhlükəsizliyinin təminində ilk və əsas məsələlər sırasına fikir, söz və mətbuat azadlığı , informasiyadan istifadə və ona malik olmaq hüququ , eləcə də informasiyaya giriş və onu əldə etməyin yolları aid edilir. Bu problemlərin hüquqi tənzimində Azərbaycan Respublikasının Konstitutsiyası, "Məlumat azadlığı haqqında", "Dövlət sirri haqqında", "İnformasiya əldə etmək haqqında" və s. bu kimi qanunların rolu təhlil edilir.

Dissertasiyada göstərilir ki, informasiya təhlükəsizliyinin təmin olunmasında elektron hökumət layihəsi mühüm rol oynayır. Onun əsas vəzifələrindən biri dövlət informasiya mühitinin yaradılması və hakimiyyət orqanlarının fəaliyyəti haqqında informasiyaya vətəndaşlarının çıxışının əldə edilməsidir. Elektron hökumətin formalaşdırılmasında atılan ən mühüm addım kimi "Elektron hökumət" portalı haqqında Əsasnamənin təsdiqini saymaq olar. Portalın fəaliyyətinin yeddi prinsipini təhlil edərək , belə qənaətə gəlinir ki, buraya məlumatların düzgünlüyü, obyektivliyi də əlavə edilsə idi, daha yaxşı olardı. Doğrudur, şəffaflıq prinsipində fəaliyyətin şəffaflığı hesabatlılığın təmini və onların nəticələrinin izlənilməsi məsələsi qoyulur, ancaq bu heç də informasiyaların tam obyektivliyinə zəmanət vermir. Çünki tam obyektiv olmayan informasiyalardan sistemin qorunması məsələsi hələ də aktual olaraq qalır. Bunların nəzərə alınması yarana biləcək informasiya təhdidlərinin qarşısının alınmasına və özlüyündə informasiya təhlükəsizliyi siyasətinin möhkəmləndirilməsinə şərait yaradar. İnformasiya təhlükəsizliyinin təminində KİV

[29] Azərbaycan Respublikasının Milli Təhlükəsizliyi haqqında qanunu, http://www.mns.gov.az /az/pages/72-74.html

və internetin hüquqi tənzimi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan cəmiyyətində KİV-in fəaliyyətinin hüquqi bazasının yaradılmasında Azərbaycan Respublikasının Konstitusiyası, "KİV haqqında ", "Senzuranın ləğvi haqqında" qanunlar müstəsna rol oynamışdır. Tədqiq olunan qanunlar göstərir ki, Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin təmini sahəsində kifayət qədər qanunvericilik bazası formalaşmışdır.

"**Azərbaycan Respublikası informasiya müharibəsinin obyekti və subyekti kimi**" adlı üçüncü yarımfəsildə göstərilir ki, Azərbaycan beynəlxalq münasibətlər sisteminin bir subyekti kimi informasiya təsirlərinə məruz qalır və bununla da informasiya müharibəsinin iştirakçısına çevrilir. O, bu müharibənin subyekti və obyekti kimi öz milli maraqlarını istər daxili, istərsə də xarici siyasətdə qorumaq uğrunda mübarizə aparır. İnformasiya müharibəsi kontekstində Azərbaycan Respublikası bir neçə cəbhədə mübarizə aparır. Burada əsas cəbhələrin Ermənistan, Rusiya və İran olduğu vurğulanır. Dissertasiyada erməni tədqiqatçılarının Azərbaycana qarşı informasiya müharibəsini aparmaq haqqındakı nəzəriyyələri araşdırılır. Erməni tərəfdən təqdim olunan yazılarda son məqsədin informasiya məkanında "erməni informasiya mühitinin" yaradılması qənaətinə gəlinir. Həmçinin İran və Rusiya tərəfdən aparılan informasiya müharibəsi və Azərbaycanın bu müharibədəki fəaliyyəti araşdırılır. Göstərilir ki, Azərbaycan Respublikası son zamanlar informasiya müharibəsinə xüsusi önəm verərək, öz milli maraqlarını qorumaq baxımından informasiya təhlükəsizliyi siyasətini formalaşdırır. İnformasiya qarşıdurmasında qalib gəlmək Azərbaycan dövlətinin siyasətinin prioritet sahələrindən birinə çevrilib. İnformasiya müharibəsinin aparılmasında əsas məqsəd kimi, ərazi bütövlüyümüzün, milli maraqların, dəyərlərin qorunması prinsipinə sadiq qalmaqla digər ölkələrlə dinc əməkdaşlıq münasibətlərinin qurulması çıxış edir.[30] Əli Həsənov özünün "Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti" əsərində yazır: "Azərbaycanın beynəlxalq təhlükəsizliyinin təmin olunması ilə xarici siyasətin əsas prioriteti sülh yolu ilə Ermənistanla münaqişə vəziyyətindən çıxmaq, Dağlıq Qarabağ problemini həll etmək ,işğal altındakı torpaqları geri qaytarmaq, bütün ölkə ərazisində dövlətin suveren hüquqlarını bərpa etmək və sərhədlərinin təhlükəsizliyini təmin etməkdən ibarətdir".[31]

---

[30] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. http://www.mns.gov.az/img/3766779-_5me02.%20Milli_Tehlukesizlik_Konsepsiyasi.pdf

[31] Həsənov .Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti . Bakı, 2011, Letterpres, s.27

Dissertasiyada göstərilir ki, ümumilikdə Azərbaycan tərəfi informasiya müharibəsində öz işini aşağıdakı motivlər əsasında qurur:

- Azərbaycan Respublikasının iqtisadi, hərbi, siyasi uğurlarının təbliği;
- Azərbaycan Respublikasının regionun liderinə çevrilməsinin əsaslandırılması;
- Azərbaycan Respublikasının istər regional, istərsə də beynəlxalq səviyyədə digər dövlətlərlə beynəlxalq hüquq prinsiplərinə müvafiq olaraq dostluq və əməkdaşlıq çərçivəsində fəaliyyətinin bəyan edilməsi;
- Dağlıq Qarabağın Azərbaycanın tarixi torpağı olmasının əsaslandırılması;
- Azərbaycan Respublikasına qarşı erməni qəsdlərinin, vəhşiliklərinin bütün dünyaya sübut olunması;
- ermənilərin tarixən azərbaycanlılara qarşı soyqırımlar həyata keçirməsinin faktlarla əsaslandırılması;
- Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınmasına nail olunması;
- erməni vandalizminin sübutu;
- Azərbaycan toponimlərinin ermənilərə aid olmadığını göstərmək və s.

Azərbaycanın Ermənistandan əsas üstünlüyü ondadır ki, dövlətimizin apardığı təbliğat yalançı faktlara deyil, mövcud reallıqlara əsaslanır. Azərbaycan iqtisadi göstəricilərinə, əhalisinin sayına, inflyasiyanın aşağı dərəcəsinə, ordusunun gücünə, hərbi potensialına və s. görə qonşu dövləti çox geridə qoyur. Elə buna görə də artıq Azərbaycan informasiya qarşıdurmasında Ermənistan təbliğatına qarşı dayana bilir və uğurla öz mövqeyini bu müharibədə möhkəmləndirir. Bu bəzi erməni ideoloqlarının Azərbaycan tərəfin informasiya müharibəsini yalnız təbliğat xatirinə aparması və daxili auditoriyanın belə müharibənin qurbanı olacağı fikrini puça çıxarır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləri ilə desək: "Biz inamla qabağa gedirik. Bizə qarşı təxribatlar bundan sonra da olacaq. Bizə qarşı informasiya müharibəsi bundan sonra da aparılacaq. Bu bizi narahat etmir, sadəcə olaraq, biz bu barədə danışmalıyıq, öz tədbirlərimizi görməliyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin etməliyik".[32]

"**İnformasiya təhlükəsizliyinin təmin olunması siyasətində KİV-lərin yeri**" adlı üçüncü yarımfəsildə KİV inkişaf, demokratiya və keyfiyyətli idarəçiliklə bağlı biliyin əldə edilməsi üçün əsas qaynaq, eləcə də münaqişələr zamanı böyük

---

[32] Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında yekun nitqi. "Xalq qəzeti", 17 aprel 2012-ci il, № 82, s.1-5

əhəmiyyətli element kimi qəbul edilir. KİV həmçinin insanlar, hadisələr, mühüm tədbirlər və s. ilə əlaqədar informasiyanı cəmiyyətə təqdim etmək vəzifəsini daşımaqla informasiya təhlükəsizliyinin əhəmiyyətli hissəsinə çevrilir. İnformasiya təhlükəsizliyinin təmini baxımından KİV-in cəmiyyət həyatında ikili rolu üzə çıxır. Yəni o həm informasiya təhlükəsizliyinin qoruyucusu, həm də onun potensial təhlükə daşıyıcısı kimi  çıxış edir. Məhz düzgün qurulmuş informasiya siyasəti KİV-in cəmiyyətə neqativ təsir göstərmək imkanını azaldır.

Dördüncü hakimiyyət adlandırılan KİV informasiya təlükəsizliyinin müxtəlif səviyyələrində-fərd, cəmiyyət və dövlətin təhlükəsizliyinin təminində mühüm rol oynayaraq kütləvi informasiya təhlükəsizliyi anlayışını yaradır. Kütləvi informasiya təhlükəsizliyi isə cəmiyyətin informasiya sisteminin elə bir vəziyyətidir ki, burada olan istənilən sosial subyekt öz dini, dili, sosial mənsubiyyəti, təhsilindən asılı olmayaraq rasional qərarların qəbul edilməsinə şərait yaradan dəqiq, obyektiv informasiyaları əldə edə bilsin və buna müvafiq olaraq sosial, siyasi, ictimai sahədə öz fəaliyyətini qurmağı bacarsın.

KİV-dən gələn təhlükələri KİV sisteminin az inkişafı, istifadəçilərə informasiyaların ötürülməsində yaranan problemlər, demokratik sistemdə jurnalistlərin öz yerini və rolunu bilməməsi, sosial dialoqu aparmaq bacarığının olmaması, auditoriyanın KİV-ə passiv reaksiyası və s. yaratmış olur. Dissertasiya müəllifi tərəfindən KİV-də informasiya təhlükəsizliyinin qorumasının aşağıdakı yolları göstərilir:

1. Dövlətin informasiya siyasətinin düzgün qurulması;
2. Vahid informasiya məkanının yaradılması;
3. KİV- də özünütənzimləmənin qurulması;
4. Etibarlı mənbələr əsasında məlumatların hazırlanması;
5. Səviyyəli auditoriyanın formalaşdırılması;
6. KİV-in siyasətsizləşdirilməsi;
7. Jurnalist mədəniyyətinin yüksəldilməsi;
8. KİV-in bütün sosial qrupların, cəmiyyətin müxtəlif təbəqələrinin fikir və rəylərinin ifadəcisi olmasına nail olunması;
9. Vətəndaşın düzgün qərar qəbul edə bilməsi üçün onun dolğun informasiya ilə təmin edilməsi;
10. Hər bir kəsin informasiya əldə etməsi ilə bağlı konstitutsiya hüquq və azadlıqlarının qorunmasına  nail olunması.

Beləliklə, informasiya təhlükəsizliyinin mahiyyətinin, onun struktur elementlərinin təhlili aşağıdakı nəticələrə gətirib çıxarır:

- informasiya təhlükəsizliyi milli təhlükəsizlik sisteminin tərkib hissəsi olub, onun təmin edilməsində mühüm rol oynayır. İnformasiya təhlükəsizliyi əhatəedici xarakterə malikdir. O, milli təhlükəsizlik sisteminin bütün komponenetlərini birləşdirərək, onların fəaliyyətini müəyyənləşdirir. Başqa sözlə desək milli təhlükəsizlik sisteminin hər bir halqası aşkar informativ xarakter daşıyır;

- informasiya təhlükəsizliyi fərdin, cəmiyyətin və dövlətin informasiya təminatının qorunması vəziyyətidir;

- fərdin informasiya təhlükəsizliyinə hər bir kəsə aid olan informasiyanın toxunulmazlığı və konfedensiallığı, informasiyanın qorunmasının hüquqi, texniki – təşkilati aspektləri, informasiya – psixoloji təhlükəsizlik, informasiyadan istifadə hüquqlarının təmin edilməsi məsələləri daxildir;

- cəmiyyətin informasiya təhlükəsizliyinə isə onun maddi və mənəvi dəyərlərinin dağıdılmasına və məhvinə yönələn istənilən təhlükələrin qarşısını ala biləcək, cəmiyyət üzvlərinin hüquq və azadlıqlarının qorunmasını bacaran ictimai təsisat və institutların, yüksək siyasi şüurun formalaşdırılması, plüralizmin yaradılması, sosial subyektlərin informasiya maraqları, hüquq və azadlıqlarının qorunması ilə normal kütləvi şüurun yaradılması daxildir;

-dövlətin informasiya təhlükəsizliyinə geosiyasi vəziyyətə uyğun olaraq sosial-iqtisadi və siyasi inkişafı təmin etmək üçün informasiya təhlükəsizliyinin elmi-praktik əsaslarının yaradılması, informasiya resurslarının reyestri, informasiya mübadiləsinin təmini, vətəndaşların informasiya təhlükəsizliyində rolunun artırılmasını nəzərdə tutan qanunverici və hüquqi-normativ bazanın formalaşdırılması, informasiya sisteminin qurulması, infiormasiyanın qorunmasının müasir texniki vasitələrindən istifadənin təmin edilməsi, ictimai rəyə təsirin sivil vasitələrindən istifadə, informasiya təhlükəsizliyi siyasətinin formalaşdırılmasında vətəndaşların və cəmiyyətin maraqlarının adekvat ifadəsinə nail olmaq daxil edilir.

Bu göstərilənlər informasiya təhlükəsizliyi sistemini formalaşdırır və təhlükəsizlik məsələlərinin həllində mühüm rol oynayır.

Ümumilikdə informasiya təhlükəsizliyinin təminində ölkədə demokratik siyasi sistemin qurulması, iqtisadi və hərbi gücünün möhkəmləndirilməsi müstəsna rol oynayır. Çünki, məhz demokratik cəmiyyətdə hamının maraqlarını nəzərə almaq, plürializmə nail olmaq mümkündür. İqtisadi və hərbi gücün müasir tələblərə uyğun yaradılması isə yeni informasiya texnologiyalarından istifadəni tələb edir. Məhz bu texnologiyalardan istifadə dərəcəsi inkişafın göstəricisi kimi çıxış edərək informasiya cəmiyyətinin formalaşdırılmasını təmin edir. Stabil və təhlükəsiz cəmiyyətin formalaşdırılması informasiya mənbələrinə azad çıxışın olmasından xeyli asılıdır. Dövlətin informasiya-kommunikasiya sistemlərini, informasiya

proseslərini hədsiz tənzimi sosial- iqtisadi proseslərin, siyasi mühitin inkişafının qarşısını ala bilər. Bu baxımdan da düzgün informasiya siyasətinin qurulması informasiya təhlükəsizliyinə nail olmağın vacib şərtidir. Bu siyasətin formalaşmasında zənnimizcə dövlət idarə orqanları ilə bərabər, kommersiya strukturlarının, ictimai təşkilatların rolu nəzərə alınmalı, özünütənzim mexanizminin formalaşmasına nail olmaq lazımdır. Azərbaycan Respublikasında demokratik siyasi sistem formalaşdırılaraq fərd, cəmiyyət və dövlət maraqlarının uzlaşdırılması istiqamətində əsaslı addımlar atılır. Cəmiyyətdə demokratik dəyərlərin möhkəmləndirilməsi, informasiya hüququnun qorunması, plüralizmin tətbiqi və s. kimi addımlar bunun göstəricisidir. Respublikada yeni texnologiyaların sürətli tətbiqinə başlanmışdır və dövlət səviyyəsində informasiya cəmiyyəti quruculuguna start verilmişdir. Azərbaycanın informasiyalaşmasının əsas problemi kimi informasiya infrastrukturlarının hələ tam inkişaf etməməsi çıxış edir. Belə ki, informasiya təhlükəsizliyi sahəsində dövlət idarəsinin konkret proqram və vasitələri hələ tam formalaşdırılmamışdır və onların təkmilləşdirilməsinə ehtiyac vardır. Bu baxımdan informasiya təhlükəsizliyi doktrinasının qəbulu vacib hesab edilə bilər.

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətləri aşağıdakılardır:

1. İnsanların, vətəndaşların informasiyanı əldə etmək və ondan istifadə etmək azadlıqlarının qorunması;
2. Dövlətin informasiya təminatının möhkəmləndirilməsi;
3. İnfomasiya texnologiyalarının, o cümlədən milli informasiya sənayesinin, milli informasiyalaşma vasitələrinin, telekommunikasiya və rabitə sahələrinin inkişaf etdirilməsi, milli informasiya resurslarından düzgün istifadə edilməsi;
4. İnformasiya resurslarının sanksiyalaşmamış istifadədən qorunması;
5. İnformasiya cəmiyyətinin yaradılması prosesinin sürətləndirilməsi;
6. İnformasiya qarşıdurmalarında son söz sahibi olmaq üçün yeni texnologiyaların tətbiqi ilə bərabər, bu sahədə işləyə biləcək kadrların, mütəxəssislərin də yetişdirilməsi;
7. Ölkədə demokratik azadlıqların və dəyərlərin möhkəmləndirilməsi yolu ilə sürətli informasiyalaşmanın neqativ təsirlərindən qorunmaq;
8. Milli-mənəvi dəyərlərin möhkəmləndirilməsi, təhsil səviyyəsinin artırılması vasitəsilə informasiya resurslarına cəmiyyətin düzgün münasibətinin formalaşdırılması.

Tədqiqatdan alınan başlıca nəticə Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin həm mahiyyətinin, həm də təmin edilməsi yollarının göstərilməsindən ibarətdir. Aparılan araşdırmalar Azərbaycan Respublikasının informasiya

təhlükəsizliyi sahəsində dövlət siyasəti, informasiya cəmiyyəti quruculuğu, informasiya müharibəsində uğurun əldə edilməsi haqqında bilgilər verir və onlar dövlətin informasiya təhlükəsizliyi siyasətinin real elmi mənbələrə əsaslandığını təsdiq edir. Dissertasiyanın sonunda tədqiqata yekun vurulur və əldə olunmuş nəticələr ümumiləşdirilir.

**Hacıyeva Rühəngiz Əlihüseyn qızının dərc olunmuş məqalələrinin siyahısı:**

1. Azərbaycan Respublikasının informasiya təhlükə-sizliyi haqqında //Geostrategiya, 2012, sentyabr-oktyabr №05(11), s. 56-59.
2. İnformasiya cəmiyyəti probleminə baxışlar. // Sivilizasiya, 2013, №4, s. 47-52.
3. İnformasiya təhlükəsizliyinin təmin olunmasında KİV-lərin rolu. //Tarix və onun problemləri. Bakı-2013, №4, s. 235-241.
4. Информационное безопасность, её сущность, структура и обеспечение в конфликтных сиитуациях. // Гилея, Киев-2012, выпуск 56 (№1), стр. 591-595.
5. İnformasiya təhlükəsizliyinin təminində sosial şəbəkələrin rolu.//"Gənc alimlərin II elm festivalı" çərçivəsində " Müasir şəraitdə Azərbaycan tarixi ,dili, ədəbiyyatı və fəlsəfəsi qarşısında duran yeni vəzifələr" adlı gənc alimlərin respublika elmi konfransının materialları. // Bakı, 05-07 mart, 2013, s. 200-204.
6. Azərbaycan Respublikasının informasiya təhlkəsizliyinin təminində Ümummilli Lider Heydər Əliyevin rolu. //Ulu Öndər Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın materialları. //Bakı, 06 may, 2013, s. 252-258.
7. Проблемы информационное безопасности в условиях глобализации. // Вестник Национального Университета «Юридический Академии Украины имени Ярослава Мудрого», Украина, Харков, «Право», Выпуск №1 (20), 2014, стр.116-121.
8. Azərbaycan Respublikası Ermənistan tərəfindən aparılan informasiya müharibəsinin obyekti kimi. //Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi. Gənc alimlərin əsərləri, 2014, №10, s. 219-223.

**Гаджиева Рухенгиз Алигусейн кызы**

## Политические аспекты исследования информационной безопасности Азербайджанской Республики

В диссертации проводится комплексное исследование политических аспектов информационной безопасности, политический анализ системы информационной безопасности Азербайджанской Республики и каждого компонента этой системы, а также показываются способы обеспечения информационной безопасности.

Во введении диссертации обосновывается, актуальность темы исследования, также раскрывается сущность информационной безопасности как понятия, показывается степень разработанности проблемы, ее научная новизна, теоретическое и практическое значение.

В первой главе диссертации под названием: «Политический анализ проблем информационной безопасности» излагается суть информационной безопасности как понятия, показывается место и роль данной проблемы в системе национальной безопасности. Также приводится анализ структуры системы информационной безопасности, ее элементов и исследуется роль информационных войн в политике информационной безопасности.

Во второй главе под названием: «Основные политические направления обеспечения информационной безопасности Азербайджанской Республики» исследуются система информационной безопасности Азербайджанской Республики, ее сущность и элементы, показываются способы обеспечения информационной безопасности в Азербайджанской Республике. Кроме того, в данной главе исследуется Азербайджанская Республика в качестве объекта и субъекта информационной войны, изучаются присущие информационным войнам, проблемы и пути их разрешения. Показывается роль и место обеспечении СМИ в информационной безопасности. В заключительной части автор приходит к выводу, что обеспечение информационной безопасности Азербайджанской Республики зависит от правильного построения политики информационной безопасности, также от определения национальных интересов, объективной оценки международной политической ситуации и повышения научно-технологического потенциала и выносится рекомендации относительно способов обеспечения информационной безопасности.

**Hajiyeva Ruhangiz Alihuseyn**

## Political Aspects of Study of Information Security in Azerbaijan Republic

The dissertation has been dedicated to a complex study of political aspects of information security, where the information security system of Azerbaijan Republic and all of its components have been politically analyzed and different ways of providing information security have been shown.

The introduction of the dissertation presents topicality of the research and the main points of the information security notion. Besides, it includes information on the research status of the problem, scientific innovation and theoretical and practical importance of the dissertation.

The first chapter named as “The political analysis of the problem of information security” provides explanation on the main points of the information security notion. It also indicates its importance and role of the problem in the national security system, presents political analysis of its elements and studies the role of information wars in the information security policy.

The second chapter named “Main political directions of providing information security in Azerbaijan Republic” has been dedicated to study the information security system in Azerbaijan Republic, its main points and elements. This chapter includes several ways of providing information security in Azerbaijan Republic. Besides, Azerbaijan Republic is presented here as an object and subject for information war. The legislation system of Azerbaijan Republic has been deeply researched in the formation of information security. The chapter also studies problems occurred in the information war and the ways how to solve them. The role of mass media in information security has been revealed and political analysis about the importance of mass media in information security has been conducted in this chapter.

The conclusion incorporates the ideas of the author, which conclude that the assurance of information security in Azerbaijan Republic depends on the correct development of the information security policy, the definition of national interests, the objective evaluation of the international political situation and the development of scientific-technical capacity. The author has also given her suggestions how to provide information security.

**AMEA-nın mətbəəsində çap olunub**

**Tiraj-100**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**ГАДЖИЕВА РУХЕНГИЗ АЛИГУСЕЙН КЫЗЫ**

# ПОЛИТИЧЕСКИЕ АСПЕКТЫ ИССЛЕДОВАНИЯ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5908.01 – Политическая теория**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по политическим наукам**

**Б А К У – 2015**